# "QARABAĞın məşhur müəllimləri"




## Yusif Vəzir Çəmənzəminli

Yusif Vəzir Çəmənzəminli 1887-ci ildə Şuşa şəhərində anadan olub. "Dağ başında yazı-yayı yaşıllığa, payızı-qışı dumana və qara bürünmüş bir şəhər təsəvvür ediniz. Bu mənim şəhərimdir...Şəhərin hər nöqtəsi tarix söyləyir..." deyən yazıçı-publisist, maarifpərvər ziyalı, dövlət adamı və ictimai-siyasi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin Türkiyədəki ilk səfiri Yusif Vəzir Çəmənzəminli üçün Şuşa şərəfli həyatının təməli, başlanğıcı idi.

Yusif Vəzirin zəngin fəaliyyətində müəllimlik əsas yer tutub. O, Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) şərqşünaslıq və pedaqoji fakültəsində, sonralar isə Pedaqoji, Tibb və Neft institutlarında Azərbaycan və rus dillərindən dərs deyib. 1938-ci ildə Özbəkistanın Xarəzm Vilayət Pedaqoji İnstitutunda rus dili üzrə baş müəllim işləyib, eyni zamanda institut kitabxanasına müdir təyin olunub. Yusif Vəzir təhsil və tərbiyənin milli inkişafda həlledici rolunu vurğulayaraq yazırdı ki, məktəbsiz millət rişəsiz ağac kimidir; diriliyi üçün lazım olan qüvvəsi olmayıb, quruyub candan düşər.

## Nəcəf bəy Vəzirov

Nəcəf bəy Vəzirov 1854-cü ildə Şuşa şəhərində anadan olub. Ədibin maarifçilik ideyalarına xidmət edən zəngin yaradıcılığı milli dramaturgiyamızın inkişafında mühüm yer tutur.

Nəcəf bəy bir müddət Bakı şəhər maarif şöbəsi rəisinin müavini işləyib və müəllimi Həsən bəy Zərdabi ilə birlikdə doğma xalqının maariflənməsi üçün yeni məktəblərin, müxtəlif tərbiyə ocaqlarının açılmasında yaxından iştirak edib. O, Bakıda Kənd təsərrüfatı texnikumunda müəllimlik edib.

Əsərlərinin qonorarını xeyriyyə cəmiyyətlərinə köçürən Nəcəf bəy deyirdi: "Bu, mənim prinsipimdir. Mən hələ vicdanımı itirməmişəm ki, xalqımın maariflənməsinə kömək edən yazılarımdan qazanc götürəm".







## Bülbül

Murtuza Məşədi Rza oğlu Məmmədov 1897-ci ildə Şuşada anadan olub. Azərbaycan professional vokal sənətinin banisi, professor, ictimai xadim Bülbül böyük və gərgin yaradıcılıq yolu keçib.

Çoxşaxəli fəaliyyəti ilə Azərbaycanın musiqi mədəniyyəti tarixində silinməz izlər qoyan Bülbül 1931-ci ildən Azərbaycan Dövlət Konservatoriyasında (indiki Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyası) dərs deyib, 1940-cı ildən isə həmin təhsil ocağının professoru olub. O, milli oxuma sənətinin ən layiqli üsullarını rus və Avropa məktəbi ilə birləşdirərək yeni vokal məktəbi yaradıb. Bu məktəb nəinki Azərbaycanda, keçmiş SSRİ məkanında, həmçinin Yaxın və Orta Şərq ölkələrində də vokal sənəti sahəsində öz mühüm təsirini göstərib. Bülbülün bütün əmək fəaliyyəti vətəninə, xalqına, milli musiqi sənətinə fədakarlıqla xidmət etməyin ən bariz nümunəsidir. O, doğma dilinə böyük önəm verərək deyirdi: "Öz dilində elə oxumaq lazımdır ki, bu dili başa düşməyənlər də ondan zövq ala bilsinlər".